Heydər Əliyev - 101

UOT 94(479.24); UOT 94 (5503.02)

ZEMFİRA HACIYEVA
tarix elmləri doktoru, dosent,
AMEA Rəyasət Heyəti aparatının Elmi irs şöbəsinin müdiri,
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi
zemfira.hajiyeva@outlook.com

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ XİLASKARI VƏ QURUCUSU

DOI: https://doi.org/10.36719/2708-065X/105/49-53

Məqalədə müstəqillik əldə edildikdən sonra Azərbaycanın ictimai-siyasi həyatının çətinlikləri, sınaq və keçid dövründə ulu öndər Heydər Əliyevin tarixi fəaliyyəti araşdırılır.

Demokratiya və plüralizmə keçidin Azərbaycan modeli, bu prosesdə milli həmrəyliyin təhlili aparılır. Azərbaycanın suverenliyi fonunda siyasi ideya platformasının önəmi tədqiq edilir.

Açar sözlər: milli ideya, lider, dövlət, həmrəylik, elm, təhsil, demokratiya.

Giriş. Müasir siyasi tariximizə müqayisəli nəzər yetirdikdə onun qısa bir zaman kəsimində nə qədər çətin və mürəkkəb vəziyyətlərdən çıxdığının şahidi oluruq. İlk növbədə bunlar aşağıdakı reallıqlardan ibarət idi:

- Müstəqilliyin yeni bərpası;
- Ərazilərimizə təcavüz – Qarabağın işğalı;
- Sosializm təsərrüfat sistemindən kapitalizmə keçid;
- Bir milyondan artıq qaçqın və məcburi köçkün;
- Xarici düşmənlərin ölkəmizdə etnik qaşıdurma yaratması;
- Sosial həyat şəraitinin çətinlikləri;
- Milli ideoloji boşluqlar;
- Elmi-ideoloji çatlar;
- Daxili siyasi gərginliklər;
- Dünya azərbaycanlılarının siyasi dəstəkdən təcrid olunmuş vəziyyəti.

Məhz bu qədər daxili problemlərin vüsət aldığı tarixi məqamda ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı baş verdi. Müasir Azərbaycanın siyasi tarixində iki Böyük Qayıdış prosesi baş vermişdir:

1. Ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə Qayıdışı (Milli Qurtuluş günü);
2. İkinci Qarabağ müharibəsindəki qələbədən sonra başlanan Böyük Qayıdış.

Yuxarıda təsnifatda verdiyimiz ən çətin tarixi məqamların həllini yalnız Ulu öndərin tarixi uzaqgörənliyi aradan qaldıra və nizamlaya bilərdi. Hesab etmək olar ki, bu çətin məqamların ən mürəkkəb dövründə Azərbaycan xalqı milli xilaskarlıq missiyası liderinin kim olduğunu dərk edə bildi. Adətən keçid dövrlərində kütlə psixologiyası səhvlərə yol verə bilir. Ancaq xalqımız öz seçimində aydın və planlı qərarını rəsmiləşdirdi. Yaxın tarixin mürəkkəb şəraitini yaşayanlar üçün bunları təsəvvür etmək daha çətindir. Həmin anların həm iştirakçısı, həm də oxucusu olanda isə bir daha aydın olur ki:

-Ulu öndərin siyasi hakimiyyətə qayıdışı siyasi müstəqilliyimizi əbədi etdi;
- Milli ideoloji trendlərimizi yenilədi;
-Düşmənin hücumlarını dayandırdı;
-Milli quruculuq, xüsusən ordu quruculuğunun təkmilləşməsi artdı.

Nəticədə, suverenliyimizin möhkəm təməl prinsipləri quruldu. Bu sosial-siyasi və ideoloji təməlin parlaq qurucusu – ulu öndər Heydər Əliyev dühası siyasi müstəqilliyimizin əbədi simvoludur.

Ulu öndər bizim üçün çiçəklənən Azərbaycan, bütün dünyanın nəzər diqqətinin yönəldiyi müstəqil milli dövlət və öz sözünü istənilən səviyyədə deyə bilən İlham Əliyev kimi dövlət başçısı yetişdirmişdir. Bu, Ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biridir. Ulu öndərin ölkəmiz, xalqımız üçün gördüyü işləri, Azərbaycanı və millətimizi dünyada tanıtdırmasını yüksək qiymətləndirən xalqımız möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Ulu öndərin qoyduğu siyasi, iqtisadi və beynəlxalq xəttin daha yüksək səviyyədə həyata keçirilməsində ona yardımçı olur və olacaqdır.

Hər bir xalq gələcək inkişaf prioritetlərini düzgün müəyyənləşdirmək üçün, ilk növbədə, konkret zaman və məkan daxilində keçdiyi yolun uğurlu nəticələrindən bəhrələnməyə çalışır [6]. Bu empirik dəyərləndirmə mənsub olduğu xalqın təminatlı gələcəyi baxımından hətta zamandan istifadə edərək uzaq hədəflərə hesablanmış praqmatik, əməli siyasət yeridən, milli inkişaf üçün dayanıqlı əsasların müəllifinə çevrilən fenomenal liderlərin misilsiz xidmətlərini ön plana çəkir.

Məqalənin elmi yenilikləri. Məqalədə Azərbaycanda plüralizmin formalaşması, xüsusən siyasi plüralizmin aktuallaşmasında ulu öndər Heydər Əliyevin tarixi rolu təhlil edilir. Suverenliyimizə gedən yolun milli çətinlikləri və qlobal problemləri təsnifatlandırılır.

Müstəqillik dövrü çətinliklərindən çıxış yollarının Ulu öndər tərəfindən sistemli və balanslaşdırılmış həlli ideyası əsaslandırılır.

Müasir dünyanın sürətlə dəyişən reallığında milli ideya prinsipləri sırasında ulu öndər Heydər Əliyev siyasi irsinə yaranan milli, regional və bəşəri ehtiyaclar müqayisəli təhlil edilir.

Məqalədə ümumi metodlarla bərabər, tarixi, sistemli və müqayisəli təhlil, eləcə də ivent-analiz metodlarından istifadə edilib.

Tarixi xilaskarlıq missiyasından əbədi suverenliyə gedən yol. Hakimiyyətə gəldiyi ilk gündən Respublikada nizam-intizam tərəfdarı olmuş, qanunçuluğun möhkəmləndirilməsi və onun aliliyinin təmin edilməsi istiqamətində əzmlə çalışan Ulu öndər Azərbaycanın tarixində yeni səhifə açdı. Onun yenidən hakimiyyətə qayıdışı ölkəmizdə bütün sahələrdə geriləmənin qarşısını aldı, dövlətimizi dağılmaqdan, beynəlxalq təcriddən, anaları oğulsuz qalmaqdan, gəncləri həyatını itirməkdən, hakimiyyəti zorla devrilmək tendensiyasından, cəmiyyəti xaos və anarxiyadan xilas etdi. Ümummilli lider öz gəlişi ilə Azərbaycanın yeni dövr üçün demokratik plüralist inkişaf modelini müdrikliklə irəli sürdü. Azərbaycanın mədəni və siyasi tərəqqisinin müasir mərhələsi ulu öndər Heydər Əliyevin sovet Azərbaycanı və müstəqil Azərbaycanı inkişaf etdirməsi dövrü və həmin dövrlər arasındakı bağlılığın tədqiqinin adekvatlıq təşkil etməsi yeni-yeni araşdırmaları, eləcə də müstəqilliyimizin ilk illərində ortaya çıxan yeni demokratiya anlayışlarının cəmiyyətdə genişlənməsi və reallaşması səbəblərindən Ulu öndərin siyasi uzaqgörənliyini təhlil və öyrənməyi tələb edir. Ulu öndər Heydər Əliyevin bu istiqamətli fəaliyyəti pedaqoq alimlərə imkan verdi ki, milli məktəb və pedaqoji fikir tariximizi daha dərindən öyrənsinlər, dissertasiyalar, dərsliklər və dərs vəsaitləri yazsınlar. Əgər 70-ci illərin əvvəllərinə kimi ali pedaqoji təhsil müəssisələrində ancaq Avropa, rus məktəb və pedaqoji fikir tarixi tədris olunurdusa, 70-ci illərdə Azərbaycanda pedaqogika tarixinin tədrisində ciddi dönüş yarandı. Keçmiş SSRİ məkanında ilk dəfə respublikamızda professor H.Əhmədovun təşəbbüsü ilə milli məktəb və pedaqoji fikir tarixi ilə bağlı xüsusi kurs hazırlandı, Bakıda, Naxçıvanda, Tbilisidə sınaqdan keçirildi, SSRİ PEA-nın müvafiq institutunun elmi-metodiki şurası tərəfindən bəyənildi, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiq olundu. Tələbələr Avropanın və Rusiyanın görkəmli pedaqoqları ilə bərabər, Azərbaycanda təlim-tərbiyə və məktəb təhsilinin meydana gəlməsi və inkişafı, maarifpərvər, məktəbdar və pedaqoqların fikirlərini sistemli öyrənmək imkanı qazandılar.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda harada ki, baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparmaq qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elmtutumlu və rəqabətədavamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək, arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Müstəqilliyə

qədər inkişaf etdirilən mədəni inkişafın Böyük Qayıdışdan sonra artıq plüralist bir mərhələ ilə əvəz edilməsi zərurəti yaranmışdı. Cəmiyyətin əksər hissəsi belə həmin müasir ideyalı baxışları – yeni siyasi mədəniyyəti tam dərk etmək gücündə deyil. Demokratiya, söz azadlığı kimi paradiqmaları özündə ehtiva edən müstəqil Azərbaycanın plüralist inkişafı konsepsiyasının təməl prinsipləri qurulmalı, yeni siyasi mədəniyyət formalaşmalı idi. Hər bir xalqın tarixi və müasir inkişafında tarixi liderin xüsusi yeri və əhəmiyyəti vardır. Bu missiyanı yalnız ulu öndər Heydər Əliyev yerinə yetirə bilərdi. Ulu öndər xalqın tarixən formalaşmış milli-mənəvi dəyərlərinin, düşüncə sisteminin qloballaşan dünyanın kütləvi mədəniyyət təzahürlərindən qorunması, milli özünəməxsusluğumuzu tam ehtiva edən azərbaycançılıq ideologiyasının cəmiyyətdə möhkəm sosial dayaqlar taparaq zehinlərdə möhkəmlənməsi və davamlı inkişaf prosesində mənəvi stimula çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının 50 illik yubiley mərasimində dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev özünəməxsus müdrikliklə milli elmin qarşısında duran fundamental vəzifələrdən söz açmış, kifayət qədər mürəkkəb şəraitdə bu sahənin inkişaf strategiyasını, gələcək hədəflərini açıqlamışdı. Həmin mərasimdə Heydər Əliyev ictimai və humanitar elm sahələrində müasir dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də sovetlər birliyi dövründən qalmış, köhnəlmiş stereotiplərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyini xüsusi diqqətə çəkmiş, ələlxüsus da tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa, dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırmışdır [8, 6].

XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yer tutması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması da məhz ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın iradəsinə əsaslanmaqla təməlini qoyduğu uzaqgörən siyasətin nəticəsidir. Bu siyasət ideoloji boşluqları dəf etməklə bərabər, tarixin yeni səhifəsində bir çox problemlərin bir anda həllini mümkün etdi. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ümummilli lider xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider xarici siyasətdə yol verilmiş səhvlərin aradan qaldırılması istiqamətində qətiyyətli addımlar ataraq, birinci növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir [4]. Bu tarixi mərhələ dünyanın yeni çətin dövründə baş vermişdir [5, 243]. Azərbaycana ikili standartlarla yanaşmalara qarşı qətiyyətli mübarizə aparan ulu öndər Heydər Əliyev aparıcı dünya dövlətlərini Respublikamızın tarazlı və müstəqil siyasət yürüdəcəyinə, müstəqillik, suverenlik və demokratiya ideallarına möhkəm baglılığına inandıra bilmişdir. Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi tarixi nitq gələcək nəsillər üçün əbədi müstəqilliyimizə sevgi çağırışıdır: *"Sizdən çox şey tələb olunmur. Sadəcə, siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!" [3].*

Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik qarşısında misilsiz xidmətlərindən biri də müstəqil Azərbaycanın yeni neft strategiyasının hazırlanması və 1994-cü ildən uğurla həyata keçirilməsi olub. Miqyasına görə XX əsrin analoqu olmayan qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir. Son 30 ildə bir çox inkişaf etmiş dövlətlərin əsrlərlə keçdiyi tərəqqi yolunu inamla qət edən respublikamızın inanılmaz iqtisadi və siyasi nailiyyətlərinin bazasına çevrilən bu kontrakt, eyni zamanda Azərbaycanın yüksək siyasi iradəsini, milli maraqlarını sonadək müdafiə etmək və təbii sərvətlərinə sahib çıxmaq əzminin təntənəsi kimi tarixiləşmişdir. Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunu müasir dövrün reallıqlarına uyğun

davam etdirən cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız tarixi nailiyyətlərə imza atır. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam"- deyən cənab İlham Əliyev həqiqətən də son 20 ildə hər bir azərbaycanlının sevgi və rəğbətini qazandı. 44 günlük Vətən müharibəsinin nəticəsində Ali Baş komandan, Prezidentimiz cənab İlham Əliyev Azərbaycan vətəndaşları ilə yanaşı, bütün dünya azərbaycanlılarının sevimli liderinə çevrildi. Bu gün cənab İlham Əliyevin uğurlu, gərgin fəaliyyəti nəticəsində ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi üçün dünya ölkələri və Avropa Birliyi dövlətləri ilə əməkdaşlıq yeni və daha yüksək mərhələyə çatmış, ərazilərimiz işğaldan azad edilmiş, suverenliyimiz bərqərar olub möhkəmlənmişdir. Bu ideyanın prinsipinin təməlində Ulu öndərimizin böyük, işıqlı və möhkəm əsaslı ideoloji yolu dayanır. Ölkəmiz XX əsrin sonu müstəqillik əldə etdikdən sonra yeni sosio-mədəni siyasi reallıqlar meydana çıxmağa başladı. Təbii ki, problemlər də çox idi. İdeoloji sahədə boşluq isə daha təhlükəli idi. Məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə xalqın təkidi ilə qayıdışı ideoloji mənzərəni müstəqilliyimizin əbədiliyi istiqamətində sürətləndirib möhkəmləndirmişdir.

Nəticə. Ulu öndərin siyasi irsi məqalədə qeyd edilən müvafiq paradiqmalar zəminində bütün zamanlarda araşdırılmalıdır. Xüsusən Plüralizm və Milli birliyin ideya əsaslarının dəyişən dünya reallığında tədqiqi məsələləri xüsusi aktuallıq kəsb etməlidir. Bu gün xalqların milli iradəsi onların həm də ideoloji tələbatlarının ödənilməsi problemini həll etməyi tələb edir. Dünya azərbaycanlılarının suveren Azərbaycan uğrunda təşkilatlanması, eləcə də Ulu öndərin siyasi irsi sistemli metodlarla təhlil və təbliğ edilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqi. URL: http://azertag.azxeber/-Prezident_Ilham_Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878 [29.04.2024].
2. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncamı. URL: https://www.president.az/articles/22420 [29.04.2024].
3. Heydər Əliyevin Dünya Azərbaycanlılarının 1-ci qurultayında nitqi. URL: https://az.-wikisource.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar nitqi [29.04.2024].
4. "Azərbaycan multikulturalizmi". Dərslik. BBMM, Mütərcim, 2017, s.15.
5. Daşdəmirov A. "Millət və cəmiyyət tarixin sərt dönəmində", Bakı, Elm, 2008, 344 s.
6. Kissincer H. "Yeni dünya nizamı haqqında". URL: http://news.milli.az/world/330506 [29.04.2024].
7. Mədəniyyətlərarası Dialoqa dair "Ağ kitab" "Ləyaqətlə Bərabərhüquqlu Birgə yaşama. URL: http://www.coe.int/t/dg4/intercultural/Source/Pub_White_Paper/WhitePaper_ID_AzerianVersion [29.04.2024].
8. Məhərrəmov A. Elmi-intellektual inkişafi təmin edən rəhbər /"Azərbaycan", 2010, 8 may, №98.
9. Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. Bakı, Elm, 2011, 492 s.

ЗЕМФИРА ГАДЖИЕВА
доктор исторических наук, доцент,
заведующий отделом научного наследия Президиума НАНА,
Ведущий научный сотрудник Института истории имени А.А. Бакиханова НАНА

СПАСИТЕЛЬ И ОСНОВАТЕЛЬ НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В статье анализуется трудная общественно-политическая жизнь после приобретения независимости Азербайджана. Исследуется историческая деятельность великого лидера - Гейдара Алиева в период испытания и перехода Азербайджана к демократии и плюрализму, национальной солидарности в этом процессе. На фоне суверенитета Азербайджана исследуется важность политической платформы.

Ключевые слова: Национальная идея, лидер, государство, солидарность, наука, образование, демократия.

ZEMFIRA HAJIYEVA
doctor of historical sciences, associate professor,
Head of the Scientific Heritage Department of the Presidium of ANAS,
Leading researcher of the Institute of History named after A.A. Bakikhanov, ANAS

THE SAVIOR AND FOUNDER OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN

The article investigates the difficulties of the socio-political life of Azerbaijan after gaining its independence, the historical activity of the great leader Heydar Aliyev during a period of trial and transition.

Azerbaijan's model of transition to democracy and pluralism, national solidarity is analyzed in this process. The importance of the platform of political ideas is studied against the background of Azerbaijan's sovereignty.

Keywords: National idea, leader, state, solidarity, science, education, democracy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.